# Qarşıdakı dövrdə son 17 ildəki uğurlarımızı ən yüksək səviyyəyə qaldıra biləcəyik



***Böyük qələbə ilə başa çatdırdığımız Vətən müharibəsindən sonra və pandemiyanın yaratdığı problemləri uğurla dəf edib, demək olar ki, arxada qoyduğumuz bir zamanda yeni daha sürətli bir inkişaf yolu seçdik. Azərbaycan Prezidenti İlham Əliyevin 2 fevral 2021-ci il tarixli sərəncamı ilə təsdiq olunmuş "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" növbəti on il ərzində Azərbaycanın sürətli inkişafını gerçəkləşdirməyi qarşıya mühüm vəzifə kimi qoyan mühüm dövlət proqramıdır.***

Son 17 ildə keçilmiş sürətli inkişaf yolu Azərbaycanı təkcə Cənubi Qafqazın deyil, bütövlükdə yerləşdiyimiz regionun lider dövlətlərindən birinə çevirə bildi. Lider dövlət olmaq heç də həmin dövlətin yerləşdiyi ərazinin ölçülərindən və ya əhalisinin sayından asılı olmur. Regionda bu statusa sahib olmaq üçün son iyirmi ilə yaxın vaxt ərzində görülmüş işlərin siyahısına nəzər salmaq yetərlidir ki, Azərbaycanın bu reallığı necə əldə etdiyini hər kəs görə bilsin.

Bu mərhələyə yüksəlişimiz sadəcə çalışmağımız hesabına baş vermədi. Biz bəzən çalışmaqla yanaşı, lazım olan məqamlarda qətiyyət nümayiş etdirməyi də bacardıq. Əks halda, Cənub Qaz Dəhlizi qədər mürəkkəb, çoxsaylı dövlətlərin və iri şirkətlərin iştirakı ilə başa çatan XXI əsrin ən nəhəng enerji layihəsinini reallaşdırıb Avropanın enerji təchizatçısına çevrilə bilməzdik. Əsrin ən böyük enerji layihəsini gerçəkləşdirməklə Azərbaycan ilk baxışda mümkün olmayanı etdi. Azərbaycan Prezidenti cənab İlham Əliyevin qətiyyətli mövqeyi sayəsində reallaşdırılmış bu layihənin dəyəri Azərbaycanın bir illik Ümumi Daxili Məhsulunun dəyəri səviyyəsindədir.

Bəli, bunu praktik olaraq hansısa bir dövlətin etməsi bəlkə də mümkün deyildi. Lakin biz bunu həyata keçirdik. Ötən illər ərzində Azərbaycan bir çox başqa uğurlara da beləcə imza ata bildi. Nəticələr dünyanın gözləri qarşısındadır: son 17 ildə iqtisadiyyatımızı üç dəfə böyüdü, Azərbaycan bölgənin ən qüdrətli ölkəsinə çevrildi.

İqtisadi gücümüzə söykənərək qurduğumuz ordu isə dünyanı heyran edəcək bir məharətlə Ermənistanın işğalçı silahlı qüvvələrini 44 gün ərzində darmadağın edərək otuz ilə yaxın əsarətdə qalan torpaqlarımızı düşməndən təmizlədi. Vətən müharibəsində qazandığımız bu qələbə dünya hərb tarixinə qızıl hərflərlə yazıldı. Dünya hərb texnologiyalarının son naliyyətlərindən səmərəli yararlanaraq, şanlı tarix yazmış ordumuzun bu parlaq qələbəsi indi xarici ölkələrdə hərbi dərsliklərin mövzusuna çevrilir. Bizdən öyrənirlər. Belə bir ordunu biz iqtisadi və maliyyə qüdrətimizə söykənərək yarada bilmişik.

Bu gün isə müharibədən sonrakı və yaxınlaşan postpandemiya dövrü üçün yeni hədəflərimizi müəyyən edən bir Milli Prioritetləri ortaya qoyuruq. Bu proqramı reallaşdırmaqla biz növbəti on ildə dayanıqlığı getdikcə daha da möhkəmlənən, rəqabətqabiliyyətliliyi artan bir iqtisadiyyat formalaşdırmağa, dinamik, inklüziv və sosial ədalətə əsaslanan cəmiyyət qurmağa, ölkəmizi rəqabətli insan kapitalı olan müasir innovasiyalar məkanına çevirməyə, işğaldan azad olunmuş torpaqlarımıza böyük qayıdışı təmin etməyə və ekoloji cəhətdən təmiz bir mühit yaratmağa nail olacağıq.

Postpandemiya dönəminin yaxınlaşması ilə dünyanın bütün ölkələri iqtisadi inkişafın yeni hədəflərini müəyyən etməyə çalışacaqlar. Bu da təbii olan bir prosesin bağlanğıcı kimi dəyərləndirilməlidir. Biz hadisələri qabaqlamağa, üstün inkişafımızı təmin etməyə köklənmişik. Azərbaycan regionun lider dövləti kimi bu mövqeyi növbəti on ildə də əsaslı şəkildə möhkəmləndirəcək.

Şanlı ordumuzun erməni işğalçılarına verdiyi dərslərdən sonra düşmənin dəridən-qabıqdan çıxaraq hərbin bugünkü naliyyətləri ilə silahlanmağa çalışacağı şübhəsizdir. Biz düşmənlərimizin xislətinə yaxşı bələdik. Xəstə təfəkkürə malik bir millət acınacaqlı iqtisadi vəziyyət üzündən mərhumiyyətlər yaşasa da, bunu etməyə çalışacaqdır. Deməli, biz iqtisadiyyatımızı indikindən daha sürətlə inkişaf etdirib, onu indikindən daha yüksəklərə qaldırmalıyıq. Biz bunu etməliyik, ki, düşmən həmişə arxamızca sürünsün. Biz iqtisadi qüdrətimizə söykənərək, dünya hərbinin ən son naliyyətləri ilə yaradılmış silahlara sahib olmalı və yaxud, onların Azərbaycanda istehsalını təşkil etməliyik. Biz, həm də bunu ona görə etməliyik ki, Azərbaycan vətəndaşının sosial müdafiəsini inkişaf etmiş ölkələrin səviyyəsinə yüksəldə bilək.

Ən başlıca vəzifəmiz də budur. Bu məqsədi reallaşdıra biləcəyik. Çünki ortada son 17 ildə etdiklərimizin bariz nümunəsi və keçdiyimiz uğurlu inkişaf yolu var. İndiki hədəfimiz isə yeni dönəmdə ölkə iqtisadiyyatının neftdən asılılığını minimuma endirmək və real sektorun üstün sürətlə inkişafını təmin etməkdir.

***Fikrət YUSİFOV,***
***iqtisad elmləri doktoru, professor***